# MÜSTƏQİLLİK İLLƏRİNDƏ KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİNDƏ TƏLƏBƏLƏRLƏ APARILAN İSTEHSALAT TƏCRÜBƏSİNİN TƏŞKİLİ

MƏMMƏDOV M.Ə.
*BDU, Kitabxanaşünaslıq kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*m.mehmanali@gmail.com*

*Məqalədə kitabxanaçılıq-informasiya fakültəsinin timsalında istehsalat təcrübəsinin əhəmiyyəti, məqsədi və vəzifələri izah edilmiş və göstərilmişdir ki, təhsil və təcrübə qarşılıqlı vəhdət təşkil edir, biri digərini tamamlayır. Bu, bütün sahələrdə olduğu kimi, kitabxanacılıq təhsilinə də aiddir.Kitabxanaçılıq təhsilinin əsas məqsədi təkcə ondan ibarət deyil ki, tələbə ancaq ixtisasa dair nəzəri bilikləri mənimsəsin. O, həm də gələcək peşəsinə dair təcrübi məsələləri öyrənməlidir. Bu isə bilavasitə istehsalat təcrübəsinin düzgün təşkilindən asılıdır.*

***Açar sözlər:*** *Kitabxanaçılıq-informasiya fakültəsi, təhsil, istehsalat təcrübəsi, gənc mütəxəssis.*

Təhsil və təcrübə qarşılıqlı vəhdət təşkil edir, biri digərini tamamlayır. Ona görə də xalq təsərrüfatının bütün sahələri üçün kadrların hazırlanmasında istehsalat təcrübəsinin təşkili böyük əhəmiyyət kəsb edir. Ali məktəblərdə tədris prosesinin mühüm tərkib hissəsi olan istehsalat təcrübələri gələcək mütəxəssisin təcrübi fəaliyyətə hazırlanmasının əsas amillərindən biridir. Tələbə təhsil müddətində almış olduğu nəzəri bilikləri məhz istehsalat təcrübələri zamanı tətbiq edir və iş prosesində əməli vərdişlər qazana bilir. İstehsalat təcrübəsi gələcək mütəxəssisə nəzəriyyəni təcrübə ilə əlaqələndirmək vərdişi aşılayır, onu böyük əməyə hazırlayır.

Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsində də istehsalat təcrübəsinin təşkilinə xüsusi diqqət verilir. Bu, hər şeydən öncə kitabxana işi prosesinin xarakterindən irəli gəlir. Kitabxanaçılıq-informasiya üzrə yüksəkixtisaslı mütəxəssisləri elə hazırlamaq lazımdır ki, onlar əsaslı təcrübi vərdişlər qazansınlar və bu vərdişləri kitabxana işi praktikasında tətbiq etməyi bacarsınlar. Çünki kitabxana-informasiya fəaliyyətinin bütün sahələrində gənc mütəxəssisin təcrübi biliklərə və əməli vərdişlərə yiyələnməsi tələb olunur. Bunu nəzərə alaraq kitabxanaçılıq-informasiya təhsilinin və təcrübəsinin 2 infrastrukturu müəyyənləşdirilmişdir:

1) Bu sahə üzrə mütəxəssis kadrların hazırlanması (bu istiqamət birinci və əsasdır);

2) Fəaliyyət və istehsalat (kitabxanaçılıq işi)





Burada həyata keçirilən fəaliyyət və işlər Azərbaycan Respublikasının bu sahəyə dair qanunları ilə tənzimlənir.

Hazırda dünya təhsil sisteminə əsaslanmaqla hazırlanan kitabxanaçı kadrlar kitabxana və informasiya işinin spesifik xüsusiyyətlərini özündə birləşdirməlidir. Dünyanın müxtəlif ölkələrinin ali məktəblərində hazırlanan kitabxanaçı kadrlar kəmiyyət və keyfiyyət etibarilə bir-birindən köklü şəkildə fərqlənsə də, bu kadrları birləşdirən bir əsas xüsusiyyət vardır. Bu da bu kadrların tədris dövründə keçdikləri istehsalat təcrübələridir. Şübhəsiz ki, bu kadrların hazırlanmasında keçirilən istehsalat təcrübələri bir-birindən fərqlənir. Ancaq bütün istehsalat təcrübələrinin bir məqsədi vardır ki, o da yüksək ixtisaslı, peşəkar kadr hazırlamaqdır.

Kitabxanaçılıq–informasiya üzrə kadrların hazırlığı və istehsalat təcrübəsinin təşkili respublika hökuməti tərəfindən hazırlanmış müvafiq dövlət standartlarına əsasən həyata keçirilir. Qəbul olunmuş dövlət standartlarında kitabxanaçılıq-informasiya təhsilinin və istehsalat təcrübəsinin bölgüsü, fəaliyyət dairəsi, prinsipləri, kitabxanaçılıq-informasiya üzrə kadr hazırlığında qarşıya qoyulan şərtlər öz əksini tapmışdır. İstehsalat təcrübəsinin təşkili hər şeydən öncə təcrübə bazalarının maddi-texniki bazasından asılıdır.

Təcrübə bazaları elə seçilməlidir ki, orada istehsalat təcrübəsinin proqramından irəli gələn tələbat ödənilsin. Ona görə ki, təcrübə bazasının düzgün seçilməsi istehsalat təcrübəsinin uğurlu təşkilinin ilkin şərtidir. Bunu nəzərə alaraq Kitabxanaçılıq-informasiya fakültəsi təcrübə bazası kimi respublikamızın ən qabaqcıl kitabxanalarından istifadə edir. Bu kitabxanaların hər biri güclü maddi-texniki bazaya malik olmaqla yanaşı, həm də güclü kadr potensialına malikdir.

Kitabxanaçılıq-informasiya fakültəsinin təcrübi bazası kimi istifadə etdiyi kitabxanalardan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası və başqalarını göstərmək olar.

İstehsalat təcrübəsindən öncə Bakı Dövlət Universiteti ilə müvafiq kitabxana arasında müqavilə bağlanır. Bu müqavilə Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa və Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə təsdiq edilmiş "Bakalavr hazırlığının minimum məzmununa və səviyyəsinə qoyulan dövlət tələbləri" strukturunun 3-cü maddəsinə müvafiq olaraq hazırlanır. Müqaviləyə uyğun olaraq istehsalat bazası aşağıdakı öhdəlikləri götürür:

- Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi tələbələrinin kitabxananın ərazisində təqvim planına uyğun olaraq istehsalat təcrübəsini təşkil etmək;

- Tələbələrin təcrübə keçməsi üçün müəyyən olunmuş sayda yer ayırmaq;

- Kitabxananın ərazisində təcrübə keçənlərə peşəkar və ixtisaslı işçilərdən rəhbər təyin etmək, təcrübə proqramının tələbələr tərəfindən yerinə yetirilməsinə şərait yaratmaq, təcrübə keçənin məqsədli proqramında nəzərdə tutulmamış və tələbələrin ixtisasına aidiyyatı olmayan iş sahəsindən istifadə edilməsinə yol verməmək;

- Kitabxananın ərazisində əmək və icra intizamına tələbələr tərəfindən riayət olunmasını təmin etmək;

- Təcrübə müddətində fəaliyyət istiqamətinə uyğun olaraq təcrübə keçən tələbələrin yaradıcılıq və təşkilatçılıq qabiliyyətini üzə çıxarmaq məqsədilə onların ictimai tədbirlərdə iştirakını təmin etmək;

- Təcrübə müddəti bitdikdən sonra müəyyən edilmiş qaydada hər bir tələbənin şəxsi iş davamiyyətini müəyyən etmək və təcrübənin sonunda onun şəxsi və iş keyfiyyətlərini səciyyələndirən xasiyyətnamə verilməsini təmin etmək.

Universitet aşağıdakıları öhdəsinə götürür:

- Təcrübənin başlanmasına 2 həftə qalmış kitabxana rəhbərliyinə təcrübənin məqsədli proqramını, təcrübənin keçirilməsi üzrə təqvim cədvəlini və təcrübəyə göndəriləcək tələbələrin təsdiq olunmuş siyahısını təqdim etmək;

- İxtisaslı müəllimlərdən təcrübəyə rəhbərlik etmək üçün məsul işçi təyin etmək;

- Təsdiq olunmuş təcrübə proqramının tələbələr tərəfindən yerinə yetirilməsinin təmin edilməsinə köməklik göstərmək;

- Tələbələrin təcrübə keçməsi planında müəyyən edilmiş vaxtda təcrübə yerinə gəlməsini təmin etmək;

- Tələbələrin təcrübə keçməsinə rəhbərlik edən kitabxana işçilərinə, həmçinin təcrübənin təşkili və keçirilməsinə metodik köməklik göstərmək;

- Universitet müəllim və tələbələrinin qüvvəsi ilə müəssisə işçiləri üçün razılaşdırılmış tematika üzrə mühazirələr, söhbətlər təşkil etmək.

Universitetlə müvafiq kitabxana arasında bağlanmış müqavilə 2 nüsxədə tərtib olunur. Müqavilənin bir nüsxəsi universitetdə, digər nüsxəsi isə müvafiq kitabxanada saxlanılır.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla müqavilənin ayrı-ayrı müddəalarına və şərtlərinə əməl etməkdən birtərəfli qaydada imtina edilməsi yolverilməzdir. Müqavilənin qüvvədə olma müddətinin uzadılması və yaxud müqaviləyə xitam verilməsi haqqında birtərəfli qərar qəbul etdikdə, bu barədə 1 ay irəlidən qarşı tərəfə rəsmi məlumat verilməlidir. Müqavilənin yerinə yetirilməsinin gedişatı hər il Universitetin Elmi Şurasında müəssisə nümayəndələrinin iştirakı ilə müzakirə edilir. Müqavilə bir tərəfdən universitet, digər tərəfdən kitabxana imzaladıqdan sonra qüvvəyə minir.





Kitabxanaçılıq-informasiya fakültəsində istehsalat təcrübəsinin əsası 1949-cu ildən qoyulub. Həmin illərdə təcrübə bazaları fakültənin ilk dekanı olmuş, professor Abuzər Xələfov tərəfindən istehsalat təcrübəsinin proqramına uyğun müəyyənləşdirilirdi. İstehsalat təcrübəsinin ilk proqramını da məhz prof. A.A.Xələfov tərtib etmişdi. İstehsalat təcrübəsinin proqramında geniş profilli, kitabxana işini hərtərəfli bilən kadrlar hazırlamaq vəzifələri nəzərdə tutulduğundan, tələbələrə kitabxana işinin incəlikləri ardıcıl öyrədilməsi tövsiyə edilirdi. Qeyd edilməlidir ki, prof. A.Xələfov tərəfindən ilk dəfə tərtib edilmiş istehsalat təcrübəsinin proqramı sonrakı illərdə bəzi kicik dəyişikliklərə məruz qalsa da, öz elmi dəyərini itirməmiş və hal-hazırda istifadə olunmaqdadır.

Uzun illər ərzində səmərəli pedaqoji fəaliyyət göstərmiş, fakültə dekanı və kafedra müdiri vəzifəsində çalışaraq tədris prosesinə uğurla rəhbərlik etmiş prof. A.Xələfov həm də səriştəli və bacarıqlı tədris-tərbiyə işi təşkilatcısı kimi böyük nüfuz qazanmışdır. BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsində işlədiyi 25 il müddətində o, fakültəyə tələbə qəbulunun sayının ildən-ilə artmasına, qiyabi, axşam və rus şöbələrinin acılmasına, elm və tədris sahəsində ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinin baş verməsinə, həmcinin istehsalat təcrübəsinin yüksək səviyyədə keçirilməsinə nail olmuşdur. Məhz prof. A.Xələfovun təşəbbüsü ilə 1962-ci ildən başlayaraq 1980-ci illərə qədər Kitabxanacılıq-informasiya fakültəsinin III kurs tələbələrinin istehsalat təcrübəsinin son iki həftəsinin kecmiş SSRİ-nin böyük dövlət kitabxanalarında keçirilməsinə icazə alınmışdı. Tələbələrin və təcrübə rəhbərlərinin Moskvada, Sankt-Peterburqda və digər müttəfiq respublikaların dövlət kitabxanalarında təcrübə kecmələri xeyli maliyyə tələb edirdi. Buna baxmayaraq, həmin illərdə universitet rəhbərliyi Abuzər müəllimin təşəbbüsünü dəstəkləməklə böyük xeyirxahlıq göstərmişlər. Məhz Abuzər Xələfovun sayəsində Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri kecmiş SSRİ-nin ən böyük və zəngin kitabxanalarında olurdular. Ayrı-ayrı illərdə tələbələrimiz prof. A.A.Xələfovun rəhbərliyi altında Moskvada, mərhum Sahib Rzayevin rəhbərliyi ilə Daşkənddə, Zöhrab Baxşəliyevin rəhbərliyi ilə Alma-Atada, Rasim Kazımovun rəhbərliyi ilə Sankt-Peterburqda və Tbilisidə fəaliyyət göstərən zəngin kitabxanalarda təcrübə qazanmaq imkanı əldə etmişdilər. Bu şəhərlərdə kecirilən istehsalat təcrübəsi böyük elmi, nəzəri və təcrübi əhəmiyyət daşıyırdı. Belə ki, tələbələr qazandığı elmi, nəzəri və təcrübi bilikləri gələcək fəaliyyətlərində tətbiq etmək imkanları qazanırdılar. Burada tələbələr təcrübi biliklərini möhkəmləndirir, dünya kitabxanalarının iş təcrübəsi ilə tanış olur və kitabxanaların cəmiyyətin inkişafında oynadığı rolu başa düşməyə çalışırdılar.

1964-cü ildən fakültə 4 illik tədris planı əsasında işləməyə başlamış və istehsalat təcrübəsi 3 ixtisaslaşma üzrə aparılmışdı. 1970-ci ildən isə fakültə 5 illik tədris planına keçmiş və istehsalat təcrübələri 4 ixtisaslaşma üzrə aparılmışdı. Fakültə 1984-cü ilə qədər bu tədris planı əsasında işləmişdi. Bu ixtisaslaşmalar funksional xarakter daşımış və bilavasitə kitabxanaların funksiyalarına müvafiq kadr hazırlamaq məqsədini güdmüşdü. 1984-cü ildə keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin təsdiq etdiyi fərdi beşillik planına əsasən, Kitabxanaçılıq fakültəsində 6 ixtisaslaşma üzrə istehsalat təcrübələri təşkil edilmişdi. Fakültə bu tədris planı əsasında 1992-ci ilə qədər fəaliyyət göstərmişdi. Bu tədris planına uyğun olaraq hər tədris ilində istehsalat təcrübəsinə 22 həftə vaxt ayrılırdı. Tələbələr III kursda 6 həftə, IV və V kurslarda isə 8 həftə istehsalat təcrübəsində olurdular.

İstehsalat təcrübəsinin proqramına uyğun olaraq III kursda tələbələr kitab fondu və kataloqların təşkili, kitabların kitabxana qaydası ilə işlənməsi və Soraq-Biblioqrafiya Aparatının təşkili məsələləri ilə bilavasitə əyani şəkildə tanış olurdular. IV kursda tələbələr kitabxanalarda oxuculara kitabxana və biblioqrafiya xidməti müəssisələri ilə, V kursda isə kitabxana və biblioqrafiya işinin bütün incəliklərini kompleks şəkildə öyrənir və təcrübə keçirdilər.

1992-ci ildən Bakı Dövlət Universitetində ali kitabxanaçı kadr hazırlığı 3 mərhələdə aparılır (bakalavr, magistr, doktor). Bakalavr hazırlığına 1993-1994-cü tədris ilində başlanmış, 1996-1997-ci tədris illərində ilk buraxılış olmuşdur. 1997-1998-ci tədris ilindən isə magistr hazırlığına başlanmışdır. Hər 2 mərhələnin tədris planları tərtib olunmuş, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Bakalavr hazırlığının tədris planına əsasən ümumi ixtisas fənlərinin və əsaslı elmlərin öyrənilməsinə yer ayrılmışdır. Magistr hazırlığında isə ixtisaslaşmaya daha geniş yer verilmişdir.

1993-1994-cü tədris ilindən Bakı Dövlət Universitetinin, o cümlədən Kitabxanaçılıq fakültəsinin 4 illik bakalavr hazırlığına başlaması ilə əlaqədar tədris planlarında da bir sıra dəyişikliklər edilmişdir ki, bu da öz təsvirini istehsalat təcrübəsində göstərmişdir. Belə ki, yeni tədris planına uyğun olaraq tələbələrin istehsalat təcrübələri II, III və IV kurslarda keçirilməsi məqsədəuyğun hesab edilmişdir. II və III kurslarda 2 həftə, IV kursda isə 7 həftə nəzərdə tutulurdu.

İstehsalat təcrübələri fakültəsinin tövsiyəsi ilə təsdiq olunmuş ikitərəfli razılaşmaya və bağlanmış müqaviləyə əsasən təcrübə başçısı kimi seçilmiş respublika səviyyəli kitabxanalarda, həmçinin Bakı şəhərinin iri mərkəzi, kütləvi və sahəvi kitabxanalarında keçirilirdi.

İstehsalat təcrübəsinin planına əsasən tələbələr ilk növbədə təcrübənin əsas vəzifələri və məzmunu ilə tanış olurlar.

Təcrübənin əsas vəzifələrinə daxildir:





- Auditoriya məşğələləri zamanı tələbələrin aldığı nəzəri biliyin təcrübədə möhkəmləndirilməsi;
- Kitabxananın iş prosesinin ayrı-ayrı sahələrinin ardıcıl olaraq yerinə yetirilməsində bilavasitə iştirak etməklə əməli vərdişlər qazanmaq;
- Kitabxanaların müxtəlif əməli fəaliyyətlə əlaqədar sahələrində təcrübi səriştə və bacarığın əldə edilməsi;
- Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində elmi işə marağı inkişaf etdirmək;
- Gələcək kitabxanaçıda mütəxəssis kimi öz peşəsinə məhəbbət və məsuliyyət hissi tərbiyə etmək.

Tələbələrin təcrübədə aldıqları biliklər onlara təkcə kitabxanaların vəzifələrini yaxşı başa düşməkdə deyil, həm də təhsilin daha da təkmilləşdirilməsində kömək edir. İstehsalat təcrübəsinin başlıca məqsədi şəxsiyyətin formalaşmasına və oxucuların peşə fəaliyyətinə köməklik etmək, həmçinin kitabxanaların qarşısında duran mənəvi-əxlaqi, pedaqoji və informasiya vəzifələrini tələbələrə aşılamaqdır.

Hər bir tələbə üçün işin həcmi və məzmunu istehsalat təcrübəsinin proqramına əsasən tərtib olunmuş fərdi iş planı ilə müəyyənləşdirilir. Tələbə özünün gündəlik fəaliyyətinin nəticələrini "gündəlik"də qeyd edir, istehsalat təcrübəsinin axırında görülən iş haqqında yazılı hesabat tərtib edir, müdafiə edir və bu hesabat təcrübə rəhbərləri tərəfindən təsdiq olunur.

İstehsalat təcrübəsi dövründə tələbə təcrübə bazası olan kitabxananın iş qrafikinə uyğun fəaliyyət göstərir. Onlar müəssisənin daxili qaydalarına riayət edir və gündəlik 6 saatlıq iş vaxtı ilə həftənin 6 gününü işləyir.

Təcrübəyə fakültənin müəllimləri ilə yanaşı, kitabxananın daha təcrübəli əməkdaşları rəhbərlik edir (Yerlərdə təcrübə rəhbəri müəssisə rəhbərliyi tərəfindən təsdiq olunur).

İstehsalat təcrübəsinin sonunda tələbə öz hesabatını təcrübə rəhbərləri və kitabxananın qabaqcıl mütəxəssislərindən ibarət xüsusi komissiyanın qarşısında müdafiə edir. Hər bir tələbə müdafiəyə yazılı hesabat təqdim edir və görülmüş işin nəticələri üzrə məlumat verir. Kitabxanadan olan təcrübə rəhbərləri müdafiəyə qədər təcrübə keçən hər bir tələbə üçün ayrılıqda istehsalat xasiyyətnaməsi hazırlayır. Komissiyanın üzvləri tələbələrin yerinə yetirdikləri tapşırıqların keyfiyyətini, onların təşəbbüskarlıqlarını, işə həvəs göstərmək dərəcələrini nəzərə almaqla qiyməti müəyyən edir.

İstehsalat təcrübəsi başa çatdıqdan sonra fakültədən olan rəhbər öz hesabatını, müdafiə protokolunu və tələbələrin xasiyyətnamələrini dekanlığa (əlaqədar kafedraya) təqdim edir.

Təcrübənin nəticələri kafedralarda və fakültə elmi şurasında müzakirə edilir, ümumiləşdirilir və meydana çıxan çətinliklər təhlil olunur.

Həmin yığıncağa təcrübə bazasının nümayəndələrinin də dəvət olunmaları məsləhət görülür.

II kurslarda tələbələrin keçdiyi istehsalat təcrübəsi kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq, o cümlədən "Kitabxana resursları", "Kitabxana kataloqları", "Kitabxanalarda biblioqrafiya işinin təşkili və metodikası", həmçinin "Sahəvi biblioqrafiya" fənləri üzrə aparılırdı.

II kursda təcrübənin vəzifəsi tələbələrin kitabxana fondunun komplektləşdirilməsi, formalaşdırılması və uçotu, kataloq və biblioqrafik kartotekaların təşkilinə dair nəzəri bilikləri möhkəmləndirməkdən, habelə oxuculara kitab seçməyi və biblioqrafik axtarış aparmağı öyrətməkdən ibarət olmuşdur. III kursda tələbələr əsasən "Oxuculara xidmət", "Kitabxana informasiya fəaliyyətinin menecmenti", "Elektron kitabxanalar", "Elektron kataloq", "Normativ texniki sənədlərin təsviri və təsnifləşdirilməsi" məsələləri ilə tanış olurlar. III kursun istehsalat təcrübəsində əsasən istehsalat təcrübəsinin vəzifəsi-oxucularla işə dair nəzəri bilikləri möhkəmləndirməkdən, kitabxanada oxucuları öyrənməyin əsas metodlarına yiyələnməkdən, soraq-biblioqrafiya aparatının təşkilində və istifadəsində, biblioqrafik vəsaitlərin tərtibində və kitabxana-biblioqrafiya biliklərinin təbliğində iştirak etməkdən ibarətdir.

IV kursda isə istehsalat təcrübəsinin məqsədi ümumi elmi və xüsusi fənlərin öyrənilməsi zamanı toplanmış nəzəri bilikləri təcrübəyə tətbiq etmək və möhkəmləndirməkdən; kitabxana-biblioqrafiya işinin əsas metodlarına və zəruri peşə vərdişlərinə yiyələnməkdən; kitabxananın qabaqcıl iş təcrübəsinin öyrənilməsi və təbliğindən; tədqiqat işi metodlarını aşılamaqdan; təşkilati işin vərdişlərini formalaşdırmaqdan ibarətdir.

IV kursda aparılan istehsalat təcrübəsi məzmununa görə ixtisaslaşdırılmış təcrübə hesab olunurdu. Onun əsas istiqaməti kitabxana-biblioqrafiya fənləri kompleksinə uyğun müəyyən edilirdi. Məlumdur ki, kitabxanaşünas-biblioqraf kadr hazırlığı bu sahəyə olan tələbatdan irəli gəlir. Bazar iqtisadiyyatının tələb-təklif münasibətlərinə əsaslansaq, görərik ki, zaman keçdikcə tələb olunan yerlərə qarşı təklif olunan kadrlar hər zaman azlıq təşkil etmişdir. Çünki mədəniyyətin ayrılmaz hissəsi olan və cəmiyyətdə hər zaman informasiya funksiyasını önə çəkən kitabxanaların sayı artan xətlə inkişaf etmişdir. Hazırda respublikamızda 8 minə yaxın kitabxana fəaliyyət göstərir. Bu kitabxanaları kitabxanaçı kadrlarla təmin etmək üçün kitabxanaşünas-biblioqraf kadr hazırlığına xüsusi diqqət yetirmək lazımdır.

Peşəkar kitabxanaşünas-biblioqraf kadr hazırlığı özündə peşəkar fəaliyyəti əks etdirməlidir. Buna əsasən, peşəkar kitabxanaşünas-biblioqraf kadrlar aşağıdakı fəaliyyət prinsiplərini özündə birləşdirməlidir:

- Elmi tədqiqat bacarığı;
- Praktiki istehsal bacarığı;





- Müzakirə;
- Metodiki iş və s.

Bu zaman təcrübədə çalışan kitabxanaçıların praktiki istehsal fəaliyyəti anlamını daha ətraflı mənimsəmək lazımdır. Birinci fəaliyyət istiqamətini araşdırarkən bir daha belə qənaətə gəlmək olar ki, kitabxanaçılıq təhsili və təcrübəsində əsas yerlərdən birini kadr hazırlığına verilən tələblər tutur. Kitabxanaçılıq təhsili və təcrübəsi bu sahədə çalışan kadrların hazırlığından başlayır. Düzgün kadr hazırlamaq kitabxanaçılıq təhsili və təcrübəsində əhəmiyyətli yer tutur. Kitabxanaçılıq təhsilində peşə biliklərinin tədrisi dedikdə, nə başa düşülür?

Təhsil bazası: bu zaman həmin peşənin dərinliklərinə nüfüz edən, onun əhəmiyyətini cəmiyyət üçün açıqlayan biliklər toplusu başa düşülür.

Burada istehsalat təcrübəsinin təşkili də xüsusi olaraq qeyd edilməlidir. Bunu nəzərə alaraq kitabxanaçılıq-informasiya fakültəsinin rəhbərliyi tələbələrin istehsalat təcrübəsinə böyük önəm verir.

Bakı Dövlət Universiteti rektorluğunun 03.03.2014-cü il əmri ilə Kitabxanaçılıq-informasiya fakültəsinin bakalavr səviyyəsi üçün yeni tədris planı təsdiq edilmişdir. Yeni tədris planına əsasən tələbələrin istehsalat təcrübəsi IV kursda 14 həftə (21 kredit) müəyyən edilmişdir. 2017-2018-ci tədris ilində tələbələr ilk dəfə yeni tədris planına əsasən istehsalat təcrübəsində olmuşlar. İstehsalat təcrübəsində hər il orta hesabla 140 nəfər tələbə iştirak edib. Onların 115 nəfəri kitabxanaşünaslıq və informasiya ixtisası, 25 nəfəri isə kitabşünaslıq ixtisası üzrə istehsalat təcrübəsində olurlar.

Qiyabi şöbədə də istehsalat təcrübəsinin təşkilinə xüsusi diqqət yetirilir. Belə ki, hər il beşinci kursun ikinci semestrində 21 kredit olmaqla qiyabi şöbənin tələbələri respublikamızın aparıcı kitabxanalarında istehsalat təcrübəsi keçirlər.

Magistr şöbəsində isə təcrübə 12 kredit olmaqla iki mərhələdə həyata keçirilir: elmi-tədqiqat (6 kredit) və pedaqoji təcrübə (6 kredit). Birinci mərhələdə magistrlər kafedra müdirlərinin və elmi rəhbərlərin nəzarəti altında elmi tədqiqat işlərinə cəlb olunurlar. Burada kafedranın profilinə uyğun olaraq magistrlər elmi-tədqiqat işləri ilə məşğul olur və dissertasiya işlərini yekunlaşdırırlar. Pedaqoji təcrübədə isə magistrlər məşğələ dərslərində iştirak edir və pedaqoji vərdişlərə yiyələnirlər. Hər iki mərhələnin sonunda magistrlər hesabat yazır və müvafiq kafedralara təqdim edirlər. Kafedralarda magistrlərin iştirakı ilə hesabatlar müzakirə edilir, tələbənin elmi və təcrübi biliyi 100 ballıq sistemlə qiymətləndirilir.

Bakalavr pilləsində baza kitabxanası kimi BDU-nun Elmi Kitabxanası, AMEA Elmi Kitabxanası, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, F.Köçərli adına Respublika

Uşaq Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin "Azərbaycan" nəşriyyatı seçilmişdir.

Kitabxanaçılıq informasiya fakültəsində kadr hazırlığı 2 istiqamətdə aparılır: Kitabxanaçılıq və informasiya; Nəşriyyat işi və redaktəetmə.

Bununla əlaqədar olaraq fakültəmizdə 4 kafedra fəaliyyət göstərir: Kitabxanaşünaslıq kafedrası, Biblioqrafiyaşünaslıq kafedrası, Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrası, Kitabşünaslıq və nəşriyyat işi kafedrası.

Tələbələrin ixtisasına uyğun olaraq istehsalat təcrübələri ayrı-ayrı baza kitabxanaları və nəşriyyatlarda təşkil olunur.

Tələbələrin istehsalat təcrübəsi kitabxana ilə ənənəvi tanışlıqdan başlanır. Burada ilk öncə kitabxananın struktur quruluşu, vəzifəsi və əsas göstəriciləri, onun mərkəzləşmiş sistemdə rolu və yeri, kitabxananın soraq-bib-lioqrafiya aparatı, onun təşkili prinsipləri və s. məsələlər haqqında tələbələrə məlumat verilir. II mərhələdə tələbələrə kitabxananın fondu haqqında məlumat verilir. Burada kitabxanada fondun həcmi, tematik-tipoloji tərkibi, komplektləşdirmənin cari və retrospektiv planı, kitabxanada istifadə edilən biblioqrafik mənbələr, fondun uçotu, onun təşkili xüsusiyyətləri, yeni daxil olmuş ədəbiyyatın şöbələr arasında bölüşdürülməsi və düzülüş sistemi haqqında məlumat verilir. Burada həmçinin oxucularla iş, elmə və istehsalata xidmət, oxucuların tərkibi, onlara fərqli xidmət, oxucuların abonementdə və qiraət zallarında qruplar üzrə bölünməsi, əməkdaşlar arasında əmək bölgüsü, oxu zalları, o cümlədən ixtisaslaşdırılmış oxu zalları haqqında məlumatlar verilir.

Burada tələbələr məsləhətçi kimi kitab fondunda və kitab verilişində iştirak edir; oxucu formulyarının, oxucu qruplarının təşkilini və mütaliəsinin, kitabxanaçının gündəlikdə qeydlərinin, gündəlik gəliş, kitab verilişi, dövriyyə, oxucu sorğuları və rədd cavablarının təhlilini aparır; oxucularla qrup halında və fərdi şəkildə söhbət edir, müəyyən mövzuya dair ədəbiyyatın seçilməsinə kömək göstərir; müxtəlif hazırlıq səviyyəsinə malik oxuculara ədəbiyyat tövsiyyə edir; mütaliəyə rəhbərlikdə müxtəlif biblioqrafik vasitələrdən istifadə və əsas kitab saxlayıcıdan kitab alınmasının texnologiyasını öyrənir; oxucularla işdə müasir texniki vasitələrdən istifadəyə yiyələnir; abonementdə və oxu zalında kitabxana-biblioqrafiya biliklərini təbliğ edir.

Bu mərhələdə tələbələrə təcrübi tapşırıqlar verilir. Təcrübi tapşırıqlara daxildir:

- Kitabxana fondunun komplektləşdirilməsində iştirak etmək;
- Müxtəlif mənbələrdən kitabxanaya daxil olmuş kitabların işlənməsi;
- Yeni daxil olmuş və oxuculardan qayıtmış ədəbiyyatın fondda düzülüşü;
- Kitabxanada fondun düzülüşünü yoxlamaq;





- Fondu köhnəlmiş və aktuallığını itirmiş ədəbiyyatdan təmizləmək;
- Sifarişlərin qəbulu və kitab verilişi (kitabın seçilməsi, mütaliə mədəniyyətinə dair söhbətlər, ədəbiyyatın verilməsinə hazırlıq prosesi)
- Kitabxanada oxucularla fərdi xidmət haqqında arayış tərtib etmək;
- Kitab sərgilərini təşkil etmək;
- Abonementdə biblioqrafik vasitələrdən istifadəyə dair arayış tərtib etmək;
- Səs yazılarından, mikrofiş, diafilm və digər bu kimi materiallardan kitabxanada istifadə olunma dərəcəsi və s.

İstehsalat təcrübəsinin növbəti mərhələsində tələbələr əksər kitabxanaların elmi-metodik təminatı, biblioqrafik fəaliyyətin, normativ-texniki, patent informasiya xidmətin əsas istiqamətləri ilə tanış olurlar.

Bura daxildir:

- Biblioqrafiya şöbəsi və onun funksiyaları ilə tanış olmaq;
- Stasionar və qeyri-stasionar xarici biblioqrafik fəaliyyətin əlaqələndirmə funksiyasını yerinə yetirən bölmələrin iş üsulunu tədqiq etmək və mənimsəmək;
- Kitabxananın soraq biblioqrafiya aparatı ilə iş;
- Jurnal və qəzet məqalələrinin kartotekası üçün materiallar seçmək və onların biblioqrafik təsvirini aparmaq;
- Kitabxanalara metodik rəhbərlik sistemi, onun təşkili xüsusiyyəti, metodik rəhbərliyin forma və metodları ilə ümumi tanışlıq, komplektləşdirmə, əlifba, sistemli və elektron kataloqların tərkibində iştirak etmək və s.

İstehsalat təcrübəsində olan hər bir tələbə universitet tərəfindən gündəliklə təmin olunur. Tələbə hər gün gördüyü işləri gündəlikdə qeyd edir və rəhbər tərəfindən yoxlanılır, imzalanır. İstehsalat təcrübəsinin sonunda hər bir tələbəyə xasiyyətnamə yazılır və müəllimlər tərəfindən 100 ballıq sistemlə qiymətləndirilir.

Beləliklə, kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin və kitabxanaçılıq təcrübəsinin rolundan danışarkən bu sahədə tədris olunan fənlərin elmi xarakteristikasına və mövcud istehsalat təcrübəsinin tətbiqi keyfiyyətinə xüsusi diqqət yetirilir.

## ƏDƏBİYYAT


1. *Azərbaycan təhsili XXI əsrin astanasında.-B,1998.-32s*
2. *Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.-B.: Maarif, 1987.-129s.*
3. *Xələfov A.A. Azərbaycanda ali kitabxanaçılıq təhsili.-B.,1998.124s.*
4. *Aslan K. Elm və təhsil fədaisi.-B.2006.-240s.*
5. *Qardaşov R. Azərbaycanda kitabxanaçılıq təhsili.-B.,2018.-158s.*

# ОРГАНИЗАЦИЯ ПРОИЗВОДСТВЕННОЙ ПРАКТИКИ ДЛЯ СТУДЕНТОВ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ФАКУЛЬТЕТА В ГОДЫ НЕЗАВИСИМОСТИ

**МАМЕДОВ М.А.**

***РЕЗЮМЕ***

*Статья изучает процесс организации производственной практики студентов библиотечно-информационного факультета в годы независимости, его разноссторонние элементы и эффективности.*

*Соответствие образовательного процесса с производственной практики, компетентность подготовки студентов и изучение инновационных проектов является важнейшим фактором при организации производственной практики.*

***Ключевые слова:*** *Библиотечно-информационный факультет, производственная практика, компетентность образование, инновационные проекты*

# ORGANIZATION OF PRACTICAL TRAINING WITH STUDENTS IN THE LIBRARY SCIENCE AND INFORMATION FACULTY IN THE YEARS OF INDEPENDENCE

**MAMMADOV M.**

***SUMMARY***

*The article describes the importance, purpose, and objectives of the practical training at the library and information faculty, and shows the mutual relations of education and practice. This applies to all areas of education as well as the library science. The main goal of library education is not just simple acquisition of theoretical knowledge in the specialty. Students also would study practical issues with the future profession. It depends on the proper organization of practical training.*

***Keywords:*** *library science and information faculty, education, practical training, a young specialist.*